Azadlıq Radiosu

DÜNYA

# Con Koul siyasi məhbusların azad olunması üçün sentyabrda Belarusa gedəcək

indicə




Con Koul və Aleksandr Lukaşenko

ABŞ-nin Belarus üzrə xüsusi elçisi **Con Koul** sentyabrın ortalarında yenidən Belarusa səfər etməyi planlaşdırır. Məqsəd bu ölkədə siyasi məhbusların daha bir qrupun azadlığa çıxmasına nail olmaqdır. Bunu C.Koul "Amerikanın Səsi"nin rus xidmətinə müsahibəsində deyib.

**"Bir neçə həftəyə yenidən Belarusa getməyə hazırlaşıram. Ümid edirəm, daha çox siyasi məhbusun azadlığa çıxmasına nail olacağam. Düşünürəm, bunu bacararam... Hər dəfə Belarusa gələndə danışıqlar aparırıq və insanlar azadlığa çıxırlar"**, – diplomat söyləyib.

Xüsusi elçinin dediyinə görə, indiyədək Belarusda 700-800 nəfərin azadlığa çıxmasına nail olub, yaxın vaxtlarda bu rəqəmi min nəfərə çatdıracağına ümid edir.

C.Koul avqustun 22-də "The New York Times" qəzetinə demişdi ki, Belarusda qalan bütün siyasi məhbusların azadlığına nail olmaq istəyir. O, tezliklə böyük mübadilə gözlədiyini əlavə edib.

Elçi daha əvvəl siyasi məhbusların azad edilməsinə nail olmaq üçün Aleksandr Lukaşenko ilə araq içdiyini, onunla "öz üslubunda" danışdığını söyləyib. Diplomat qeyd edib ki, təkcə Lukaşenko ilə deyil, Belarus müxalifətçiləri ilə də yaxşı münasibətlər qurub.

Koulun sözlərinə görə, o, müxalifətçilərlə Belarus rejimini tənqid edərkən daha mötədil olmaları barədə razılığa gəlib, çünki **"orada hələ 800-900 nəfər qalıb və əgər siz Lukaşenkonu həddən artıq qəzəbləndirsəniz, hər şey pozular".**

ABŞ prezidenti Donald Tramp 2025-ci ilin yanvarında Ağ evə qayıtdıqdan bəri Belarusda təxminən 500 siyasi məhbus azadlığa buraxılıb. Bunun qarşılığında isə Vaşinqton Belarusun kalium şirkətlərinə qarşı tətbiq etdiyi sanksiyaları müəyyən qədər yumşaldıb.

## Buna da bax:


500 məhbus azad edildi, müxalifət zəiflədi – Sürgündəki Belarus qüvvələri böhran içində

Lukaşenko: ABŞ Belarusa 'böyük razılaşma' təklif edir

Belarus və Polşa arasında məhbus mübadiləsi: Jurnalist Andjey Poçobut azadlığa buraxılıb


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur